# AZƏRBAYCAN MƏLUMAT BÜLLETENİ

# Azərbaycan

Fevral 2024-cü il

BMT QAK Azərbaycandakı məcburi köçkünlər, qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün **dayanıqlı həll yolları**nın əldə olunmasında Hökumətə dəstək verir.

**Məcburi köçkün icmalarının maddi baxımdan təminatına** yönələn tədbirlərdən əlavə, BMT QAK həm də icma səfərbərliyi, hüquqi və sosial yardım proqramlarını dəstəkləyir.

BMT QAK-ın müdaxilələri BMT-nin 2030-cu il Gündəliyində və Qaçqınlar üzrə Qlobal Sazişdə əks olunan humanitar və **dayanıqlı inkişaf** prioritetləri ilə uzlaşır.

## BMT QAK-IN ƏHALİ STATİSTİKASI (1 iyul 2023-cü ildə)*

| | |
|---|---|
| Məcburi köçkünlər | **658793** |
| Qaçqınlar | **6280** |
| Sığınacaq axtaranlar | **159** |
| Vətəndaşlığı olmayanlar | **3585** |

### Üç başlıca mənşə ölkəsi*

**Qaçqınlar**




**Sığınacaq axtaranlar**




***BMT QAK-ın 2023-cü ildə dərc olunan yarımillik hesabatı və Qurumun məlumat axtarma bazası (data finder)*

## ƏSAS MƏQAMLAR

**55337 məcburi köçkün** təhlükəsiz və könüllü qayıdışa şərait yaradılmasına dəstək üçün 2023-cü ildə həyata keçirilən və BMT QAK tərəfindən maliyyələşdirilən minalarla bağlı məlumatlandırma sessiyalarında iştirak edib.

**52 qaçqın gəncin** ali təhsil almasına DAFI (Albert Eynşteyn adına Alman Qaçqın Tələbə Təşəbbüsü) Təqaüd Proqramı üzrə və ya illik təhsil haqlarının ödənilməsi yolu ilə BMT QAK tərəfindən dəstək göstərilib.

**17 vətəndaşlığı olmayan şəxs** 2023-cü ildə vətəndaşlıq əldə edib. BMT QAK-ın hüquqi və maliyyə yardımı ilə, bundan əlavə, 117 nəfərin vətəndaşlıq üçün müraciəti təqdim olunub.

**2852 məcburi köçkün və həssas qrupdan olan şəxs** Yaponiyanın “Fuji Optical” şirkətinin göz müayinəsi və eynək paylanışından faydalanıb.

## Məcburi köçkünlərin qayıdışına dəstək

BMT QAK hökumət tərəfindən “Böyük Qayıdış Proqramı” çərçivəsində həyata keçirilən məcburi köçkünlərin təhlükəsiz və könüllü surətdə doğma yerlərinə qayıdışını dəstəkləyir.’

## Potensialın artırılması üçün texniki yardım

BMT QAK Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə (Dövlətqaçqınkoma) dəstək məqsədi ilə Birgə Daxili Köçkünlük Profili Xidməti (JIPS) ilə əməkdaşlıq edir. 2023-cü ilin sentyabrında keçirilən missiyadan sonra JIPS Dövlətqaçqınkomun köçkünlərin statistikası və təhlili sahəsində potensialının artırılmasına, eləcə də monitorinq və qiymətləndirmə üçün səmərəli üsulların tətbiqinə yönələn qeyd və tövsiyələrdən ibarət hesabat hazırlayıb.

## Partlayıcı Sursatların Təhlükəsinə dair Maarifləndirmə (PSTM)

Minatəmizləmə Agentliyi (ANAMA) ilə əməkdaşlıq çərçivəsində BMT QAK tərəfindən maliyyələşdirilən və "Beynəlxalq Avrasiya Mətbuat Fondu" QHT tərəfindən altı rayonda həyata keçirilən PSTM layihəsi çərçivəsində 2022-ci ilin sentyabrından 2023-cü ilin dekabrına qədər mina riski ilə bağlı 275 məlumat lövhəsi quraşdırılıb. BMT QAK və icraçı tərəfdaş 2024-cü ildə 155 məlumat lövhəsi quraşdırmağı və 50 mindən çox şəxs üçün informasiya sessiyaları keçirməyi planlaşdırır.

## Məcburi köçkün icma təşəbbüslərinə maddi dəstək

BMT QAK Dövlətqaçqınkomla birlikdə Ağdam, Bakı və Cəbrayılda bir neçə məcburi köçkün icmasına bəzi infrastruktur və maddi baxımdan təminat layihələrini tamamlamaq üçün maliyyə dəstəyi göstərir.



*Aşbazlıq sənətinin öyrənilməsi © Umid SİD / Çimnaz Hüseynova*

### BMT QAK tərəfindən maliyyələşdirilən usta yanında şagirdlik proqramı

20 yaşlı məcburi köçkün Rəvan Əhmədov peşəkar aşpaz olmaq üçün çox çalışıb. O, nikbin hisslərlə, Azərbaycanın cənub-qərbində yerləşən və atasının doğulduğu yer olan Şuşa şəhərinə köçəcəyi günü gözləyir.

Rəvanın hekayəsini buradan oxumaq olar.

## Əsas prioritetlər

- **İcma səlahiyyətləndirilməsi və özünü təminetmə:** BMT QAK  2023-cü ildə 6 icma mərkəzinin yaradıldığı 3 rayonda məcburi köçkünlər tərəfindən hazırlanmış 8 mindən çox məcburi köçkünü əhatə edən 6 icmanın imkanlarının genişləndirilməsi layihələrinə, eləcə də layihələrin hazırlanması, icma səfərbərliyi və ehtiyacların qiymətləndirilməsi üzrə 30 təlim sessiyasının keçirilməsinə dəstək verib. Həmçinin, gənc qaçqınların liderlik, ünsiyyət və karyera kimi mövzular üzrə seminarlarda iştiraklarına şərait yaradılıb.
- **Hüquqi və sosial yardım:** 2023-cü ildə 7 şəhər və rayonda 5.500-ə yaxın məcburi köçkün hüquqi yardım və sosial məsləhətlərdən yararlanıb. Hüquqi yardım və məsləhətlərdən faydalanan qaçqınların və vətəndaşlığı olmayanların sayı 2023-cü ildə 1500-ə yaxın olub.
- **Qadınların səlahiyyətləndirilməsi:** BMT QAK-ın gəncləri və qadınları əhatə edən təşəbbüslərin və xidmətlərin gücləndirilməsi ilə bağlı layihəsi 4 regionda təlim proqramları vasitəsilə 184 məcburi köçkünü əhatə edib. Bundan əlavə, 6 qaçqın qadının təcrübə keçməsi BMT QAK tərəfindən təşkil olunub.
- **Xidmətlərə və yardımlara çıxış:** Qaçqınların təhsil, səhiyyə və qanuni məşğulluq xidmətlərinə çıxış imkanını monitorinq etməklə yanaşı, BMT QAK ən həssas vəziyyətdə olan qaçqınların əsas ehtiyaclarının ödənilməsi üçün maliyyə yardımları göstərir. 2023-cü ildə 337 məktəbli birdəfəlik nağd pul yardımından faydalanıb, 252 qaçqına tibbi sığorta ilə əhatə olunmayan səhiyyə xidmətlərinə görə maliyyə dəstəyi göstərilib, 188 qaçqın ailəsi hər ay müavinət alıb, 92 ailəyə isə birdəfəlik nağd pul yardımı göstərilib. Ukraynadan olan qaçqınlar da daxil olmaqla 1993 nəfər ərzaq bağlamaları paylanışından yararlanıb.
- **Qaçqınların sosial-iqtisadi inteqrasiyası:** BMT QAK dövlət orqanları ilə yanaşı özəl sektor və inkişaf təşkilatları ilə əməkdaşlıq edir. BMT QAK vasitəsilə 2023-cü ildə 11 qaçqın rəsmi işlə təmin olunub və 8 qaçqın sürücülük məktəbini bitirdikdən sonra rəqəmsal ASAN imza əldə edib. 2023-cü ildə 45-ə yaxın qaçqın gənc BMT QAK-ın dəstəyi ilə Bakıda bacarıqların artırılması üzrə təlim kurslarında iştirak edib.

## Tərəfdaşlarla iş

- BMT QAK zorla didərgin salınanların və vətəndaşlığı olmayan şəxslərin himayəsi imkanlarını yaxşılaşdırmaq, məcburi köçkünlərin təhlükəsiz və könüllü qayıdışı ilə bağlı öhdəlik daxil olmaqla, 2019 və 2023-cü il Qlobal Qaçqın Forumları çərçivəsində Azərbaycanın götürdüyü öhdəliklərin yerinə yetirilməsinə töhfə vermək üçün hökumət, hüquq-mühafizə orqanları və vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq edir.
- **Xarici əlaqələr:** Hökumət tərəfdaşları ilə əməkdaşlıq şəraitində BMT QAK 2023-cü ilin oktyabrında Azərbaycanın sədrliyi ilə Almatı prosesi çərçivəsində Yüksək vəzifəli şəxslərin 8-ci görüşündə iştirak edib. Noyabr ayında BMT QAK sığınacaq axtaranların və vətəndaşlığı olmayan şəxslərin milli ədalət mühakiməsi sisteminə çıxış imkanlarının yaxşılaşdırılmasına həsr olunmuş seminar təşkil edib.

## Vətəndaşsızlıq

- Azərbaycan BMT-nin vətəndaşsızlığa dair 1954 və 1961-ci il tarixli konvensiyalarına qoşulub. #IBelong kampaniyası çərçivəsində 2 mindən çox vətəndaşlığı olmayan şəxs vətəndaşlıq əldə edib, 6 mindən çox şəxsin vətəndaşlıq mənsubiyyəti müəyyən edilib.
- BMT QAK vətəndaşsızlıq hallarını azaltmaq üçün hökumət tərəfdaşları ilə sıx əməkdaşlıq edir. 2023-cü ildə vətəndaşlığı olmayan 134 şəxs BMT QAK-ın hüquqi yardımından, 856 nəfər isə məsləhətlərindən yararlanıb.

## BMT QAK-ın Azərbaycanda mövcudluğu

**Heyət:**

Milli heyət - 23

Xaricilər - 3

Köməkçi heyət - 11

**İdarələr:**

Bakı şəhərində Nümayəndəlik

## Maliyyə məlumatı (fevral 2024-cü il)

**2024-cü il üçün maliyyə ehtiyacları**

8.0 M $



**Təmin olunub**
**24%**
**1.9 M $**

**Çatışmayan**
**76%**
**6.1 M $**

BMT QAK 2024-cü il üzrə qlobal proqramlarına təyinatsız və məhdud təyinatlı ayırmalar etmiş donorlara minnətdardır. 10 milyon ABŞ dolları və ya daha çox yardım göstərmiş donorlar bunlardır:

**İsveç | Norveç | İspaniya – özəl donorlar | Birləşmiş Krallıq | Niderland | Danimarka | Yaponiya – özəl donorlar | Almaniya | Özəl donorlar | Koreya Respublikası | Yaponiya | ABŞ – özəl donorlar | Fransa | İsveçrə | İtaliya – özəl donorlar | Belçika | İrlandiya | Kanada – özəl donorlar | İtaliya**

BMT QAK 2024-cü proqramlarının donorlarına təşəkkürünü bildirir. 500 min ABŞ dolları və ya daha çox yardım göstərənlər bunlardır:

**Avropa İttifaqı | Almaniya | CERF** (Mərkəzi Fövqəladə Yardım Fondu)